**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.2.177**

**BƏNÖVŞƏ RZAYEVA***

# BƏSTƏKAR RAMİZ MİRİŞLİ YARADICILIĞINDA TEATR MUSİQİSİ

*Məqalənin obyekti Azərbaycan bəstəkarlıq məktəbinin ən layiqli nümayəndələrində biri olan Ramiz Mirişlinin yaradıcılığına mənsub teatr musiqisidir. Yazıda eyni zamanda bəstəkarın həyatı haqqında qısa məlumat və bəstəkarın yaradıcılığının əsas xətti olan mahnı janrının təşkil edilməsi də yer alır.*

*Məqalədə qeyd edilir ki, bəstəkar yaradıcılığında əsas janr kimi yer ayırdığı şən, oynaq, qəlb oxşayan mahnıları ilə yanaşı teatr musiqisindən də böyük ustalıqla istifadə etmişdir. Bu məqalədə müəllif Ramiz Mirişlinin kino və teatr sahəsindəki musiqi əsərlərinin adlarını qeyd etməklə yanaşı, həmin əsərlərin ilk tamaşaları haqqında məlumat vermişdir. Yazıda Ramiz Mirişlinin ilkin olaraq səhnə əsərləri sahəsində müraciət etdiyi musiqili komediya janrına məxsus səhnə əsərləri haqqında məlumatlar da burada yer alır. O, bəstəkarın teatr musiqisi ilə yanaşı,müraciət etdiyi digər janrlarında adını çəkmişdir. Yazıda teatrda oynanılan obrazların daha emosional ifa edilməsində və təbii səslənməsində bəstəkarın yazdığı musiqinin müsbət təsirindən danışılır.*

*Məqalədə Ramiz Mirişli yaradıcılığında Naxçıvan mövzusu və Naxçıvanla bağlılığı kimi incə anlara da toxunulmuşdur. Bəstəkarın yaradıcılığında azyaşlı uşaqlar üçün yazdığı səhnə əsərlərinin də yer alması göstərilir və müəllif onun musiqisinin bütün musiqi ictimayətinə tanış olmasını, təkcə Azərbaycanda deyil İran, Türkiyə və ölkəmizdən çox-çox kənar hüdudlarda səslənməsini bir daha oxuculara çatdırmağı lazım bilmişdir.*

***Açar sözlər**:Ramiz Mirişli, Bəstəkar, Naxçıvan, teatr, janr, musiqili komediya, mahnı, əsər, dramaturq.*

## Giriş

1934-cü il aprel ayının 16-da Naxçıvan şəhərində öz musiqisi ilə gələcəkdə saysız-hesabsız pərəstişkarlarının qəlbini oxşayan balaca bir oğlan uşağı dünyaya göz açır. Onda musiqiyə olan həvəs elə kiçik yaşlarından bəlli olur. Valideyinləri onun sənədlərini Naxçıvanda ilk 1№ -li uşaq musiqi məktəbinə təqdim edirlər. Balaca Ramiz bu məktəbin xalq çalğı alətləri şöbəsində kamança ixtisası üzrə təhsil almağa başlayır.

## Əsas təhlil

Orta musiqi məkəbini əla qiymətlərlə başa vurduqdan sonra o, bakıya gələrək sənədlərini Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə təqdim edir. Qəbul imtahanı zamanı onun istedadlı bir musiqiçi olduğu nəzərə alınaraq, onu birbaşa 2-ci kursun kamança şöbəsinə qəbul edirlər. Təhsil illərinin ilk vaxtlarından gənc musiqiçi bu ecazkar qədim alətin dərin sirlərinə yiyələnir. Çox keçmir ki, o, gözəl musiqiçi, fitri istedadlı və yüksək ifaçılıq qabiliyyəti bir tələbə kimi tanınmağa başlayır. Ramiz Mirişli bu illərdə bəstəkarlıq sahəsində də özünü sınayaraq ilk mahnılarını və fortepiano üçün pyeslər yazır.

O, 1954-cü ildə orta ixtisas musiqi məktəbini bitirdikdən sonra doğma Naxçıvana qayıtmış, şəhər musiqi məktəbində həm kamança, həm də nəzəriyyə fənlərindən dərs keçmişdir. Gənc musiqiçidə yaradıcılıq meyli, bəstəkarlığa qarşı olan sonsuz həvəsi onu rahar buraxmır. O, 1956-cı ildə Bakıya qayıdır və Azərbaycan Dövlət Konservatoriyasına daxil olmaq üçün öz üzərində ciddi çalışır. İstedadlı gənc musiqiçi R. Mirişli yüksək bacarıq tələb edən bəstəkarlıq ixtisasına yiyələnmək üçün Azərbaycan xalq musiqisinin əsaslarına dərindən bələd olmağa çalışır. Belə aramsız çalışmalarla öz üzərində işləyən R. Mirişli 1957-ci ildə müvəffəqiyyətlə qəbul imtahanları verərək konservatoriyanın bəstəkarlıq sinfinə qəbul olur və burada o, respublikanın xalq artisti Cövdət Hacıyevin sinfində

dərs almağa başlayır. Təhsil illərində çox keçmir ki, gənc Ramiz bəstəkarlığın sirlərinə yiyələnməyə başlayaraq bir sıra əsərlər yazır. Onun bu sahədə yazdığı ilk əsərlərdən fortepiano üçün prelyüdlər, sonatina, fortepiano triyosu üçün kvartet və romansları qeyd etmək olar.

O, 1962-ci ildə konservatoriyanın bəstəkarlıq şöbəsini bitirərkən diplom işi kimi hazırladığı simfonik poema və bir sıra qiymətli musiqi incilərini yaratmağa nail olur. Onun bəstələdiyi dəyərli əsərləri nəzərə alınaraq, 1964-cü ildə SSRİ Bəstəkarlar İttifaqına üzv qəbul edilir. Onun belə tezlikdə artıq öz mahnıları ilə tanınması, xalq arasında sevilməsinin əsas səbəbi xalq musiqisini- muğamları, mahnı və rəqsləri, aşıq havalarını dərindən duyması və onların intonasiyalarını öz yaradıcılığına böyük bacarıqla tətbiq etməsində idi. Ramiz Mirişli Aazərbaycanda ilk dəfə olaraq mahnı janrında yallı rəqs ritminə müraciət edərək, bütün mahnı və rəqs kollektivlərinin repetuarını, o cümlədən Novruz bayramı şənliklərini bəzəyən "Bayram axşamlarında" mahnısını yazır.

Bəstəkarın mahnıları ehtiraslı, parlaq, şən melodiyalara malik olduğu üçün, gözəl və yadda qalır. Onun mahnıları təkcə musiqiçilçər tərəfindən deyil xalq arasında mahnı pərəstişkarları tərəfindən həmişə sevilərək oxunmuşdur[1. s.10].

Çünki bəstəkarın mahnılarının intonasiya əsası Azərbaycan xalq musiqisi, aşıq havaları, muğam musiqi dönmələri ilə yoğrulmuşdur. Onun mahnılarında bəzi melodiyalar xarakter cəhətdn sual-cavab xarakteri daşıyır. Bəstəkar mahnılarında istifadə etdiyi mövzular çox maraqlı və aktual olmaqla yanaşı, həm də ürəyə yatandır. Onun mahnılarında adətən Vətən, Azərbaycan təbiəti və onun əsrarəngiz gözəllikləri, məhəbbət lirikası, əmək qəhrəmanları, gənclik bayram əhval-ruhiyyəsi tərənnüm olunur. R. Mirişli öz mahnı yaradıcılığında dövrün aktual məsələlərinə toxunan şerlərə əsaslanır. Bu baxımdan da o, bütün yaradıcılığı boyu mahnı janrının spesifikasını gözəl duyan şairlərin şerlərinə müraciət etmişdir. O, yaradıcılığına müraciət etdiyi şair və dramaturq H. Cavid, digər şairlərdən Məmməd Arazın, F. Qocanın, İ.Səfərlinin, B. Vahabzadənin S.Rüstəmin, N.Həsənzadənin, M.Aslanın və başqalarının şerləri əsasında musiqi bəstələmişdir. Bəstəkarın yaradıcılığında Vətən və onun gözəlliklərini tərənnüm edən mahnılardan danışarkən "Azərbaycan dünyam mənim", "Bakı gecələri", "Naxçıvan təranəsi", "Arazım", "Vətənimsən", "Qızlar bulağı" " Doğma diyarım" və s.popluyar mahnılar diqqət çəkəndir. Bəstəkar vokal simfonik musiqi janrında "Sən ucadanuca diyar", " Odlar diyarı", "Doğma diyar" adlı üç kantatası, simfonik orkestr və xor üçün dörd süitanın və "Məşəl kimi yanar ürək odası" uzun illərdir ki, ifaçı kollektivlərin repertüarında səslənməkdədir. [2. s.101].

Ramiz Mirişli başqa janrlarla yanaşı, musiqili səhnə janrına da bütün yaradıcılığı boyu müraciət edərək, bir sıra dəyərli əsərlər yazmışdır. Onun ilk müraciət etdiyi musiqili səhnə əsərlərindən iki musiqili komediya və respublikamızın müxtəlif teatrlarında tamaşaya qoyulan 40- da çox əsərə yazmış olduğu musiqi nümunələrini göstərə bilərik.Bəstəkar 1983-cü ildə yazmış olduğu ilk səhnə əsəri "Qaçırılmış qız" musiqili komediyasıdır. Əsər 1983-cü il Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulmuşdur. Musiqili komediya janrında bu günədək çoxlu sayda əsərlər tamaşaya qoyulmuşdur. "Qaçırılmış qız" musiqil komediyası professional musiqimizin banisi və əsası Ü. Hacıbəyov tərəfindən qoyulan musiqili komediya janrına müraciət edərək, çoxlu sayda əsər tamaşaya qoyulmuş və bu əsərlər lentə alınmışdır. "Qaçırılmış qız" musiqili komediyasında bəstəkar R.Mirişli yaradıcılığının ən gözəl keyfiyyətlərinin bariz şəkildə təzahürünü tapmışdır. Daha cox onu qeyd etməliyik ki, "Qaçırılmış qız" musiqili komediyasında bəstəkar R. Mirişlinin yaradıcılığının ən gözəl keyfiyyətləri parlaq şəkildə öz əksini tapır. Bəstəkarın bu musiqili komediyası da yaddaqalan gözəl melodiyalarla rövqləndirilmişdir. Sözssüz ki, bu əsərdə R. Mirişli ilk mahnı janrında böyük ustalıqla işləyərək, obrazlı, təravətli, səmimi musiqi dili yaratmağa müvəffəq olmuşdur. Onun musiqili komediyaları ona görə müvəffəqqiyyətli və uzun ömürlüdür ki, onun gözəl melodiyası ilə yanaşı müraciət edilən mövzu dövrün problemlərinə incəliklə toxunulur və qarşısına qoyduğu məqsədə nail olur.

Bəstəkarın ikinci səhnə əsəri isə İsi Məlikzadənin "Gəl qohum olaq" musiqili komediyasıdır. Bildiyimiz kimi teatr bədii yaradıcılığın ən geniş yayılan növü kimi insan mənəviyyatının formalaşmasında böyük rol oynayır. Teatr tamaşaları daha təsirli, bədii obrazların daha inandırıcı olmasında isə musiqinin rolu danılmazdır.

Məlumdur ki, teatr bədii yaradıcılığın böyük bir hissəsini təşkil edir. Teatr tamaşaları daha təsirli

bədii obrazlarını daha da təbii olması teatr musiqisinin rolunu şərtləndirən amillərdəndir. İnsanların ülvi hisslərini, incə tellərini dinləndirməyə çalışan R. Mirişli musiqisi respublikamızın bir çox teatrlarının səhnəsinə yol tapmış və tamaşaları həyatın bədii innkasını yaratmasına, gerçəkliyin əks edilməsinə yol açmışdır.

Ramiz Mirişlinin teatr yaradıcılığındaki fəaliyyətinin ikinci istiqaməti dram əsərlərinə yazdığı musiqilərdir. Beləki bəstəkar respublikamızın müxtəlif teatrları ilə sıx yaradıcılıq əlaqələri saxlayır. Təsadüfü deyildir ki, R. Mirişli respublikamızın ona qədər teatrında səhnələşmiş 50-dən çox tamaşaya musiqi yazmışdır. Azərbaycan Dövlət Milli Akademik Dram Teatrında Qeybulla Rəsulovun "Qarabağ əfsanəsi", Gənc tamaşaçılar teatrında Əkrəm Əylislinin "Mənim nəğməkar bibim" , Teymur Elçinin "Qar qız", İsi Məlikzadənin "Sağlıq olsun", İsgəndər Coşqunun " Ana laylası", Gəncə Dövlət Dram Teatrında Cəfər Cabbarlının "Almaz", tamaşasına, o cümlədən Sumqayıt, Lənkəran, Şəki, Mingəçevir, Dövlət Dram Teatrlarında səhnələşən bir çox tamaşalara musiqi bəstələmişdir
[3. s.26].

1982-ci ildə Azərbaycan KP MK-nın H. Cavidin anadan olmasının 100 illiyi ilə bağlı Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə Naxçıvan teatrının nəzdində Cavid poeziya teatrı yaradılır və 1982-ci ilin noyabr ayının 6-da Poeziya teatrının təntənəli açılışı olur. Açılışda Şair dramaturq K. Ağayevanın H. Cavidin şerləri əsasında hazırladığı "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşası göstərilir. Bəstəkar R. Mirişli tərəfindən Cavid dühasının xoş məramını, gözəllik və ülviyyətini öz yaradıcılıq üslubuna uyğun bir musiqi dili ilə ifadə edə bilmişdir.

1983-cü il 10 dekabrda görkəmli dramaturq H. Cavidin "Azər" əsəri Naxçıvan Musiqili dram Teatrının səhnəsində tamaşaya qoyulur. Tamaşanın musiqisi bəstəkar Ramiz Mirişli tərəfindən bəstələnərək H.Cavidin poetik vüsəti və güclü dramatizm və musiqi dili əsərin oynanılması zamanı öz təsirini göstərirdi. Naxçıvan teatrı ilə yaradıcılıq əlaqəsi saxlayan bəstəkar, öz dövrünün tanınmış ziyalılarının əsərlərinin tamaşasına musiqi yazması təkliflərini qəbul edir və bir bəstəkar kimi öz dəsti-xəttinə uyğun həmin tamaşanı musiqi dili ilə işıqlandırırdı.

1984-cü il avqustun 24-də Naxçıvan Musiqili Dram Teatrında Əkrəm Əylislinin "Mənim nəğməkar bibim" tamaşası oynanılır. Əsərin oynanılmasında səslənən musiqi bəstəkar Ramiz Mirişlinin yaradıcılığından süzülüb gələn vətən məhəbbətini tamaşaçılara açıq şəkildə çatdırmışdır.

Naxçıvan teatrı 1985-ci il mövsümünü Ə.Əylislinin " Mənim nəğməkar bibim" tamaşası ilə açır. Tamaşanın rejissor işində böyükdən kiçiyə bir ideya uğrunda mübarizədə vətənin müdafiəsi yolunda ön cəbhəyə kömək üçün çalışırlar. Azərbaycan SSR əməkdar incəsənət xadimi, bəstəkar Ramiz Mirişlinin tamaşaya yazdığı musiqi rejissor fikriylə həmahənglik təşkil edirdi. Hadisələrin açılma prosesində Ramiz Mirişlinin poetik duyumlu musiqisi tamaşanın bədii estetik dəyərini gücləndirirdi.

Naxçıvan Musiqili Dram Teatrında 1990-cı il 7 martda C. Cabbarlının "Aydın " pyesi tamaşaya qoyulur. Bəstəkar Ramiz Mirişlinin bu tamaşaya yazdığı musiqi əsərə müasir don geydirən rejissor işiylə üst-üstə düşür. [4.s 28].

Ramiz Mirişli C.Məmmədquluzadə adına Naçıvan Dövlət Musiqili Dram Teatrı ilə daim əlaqə saxlamışdır. Məlumdur ki, Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinin mühüm və əzəmətli bir qolunu təşkil edir. Naxçıvan Dövlət Musiqili Dram Taeatrı mədəniyyət mərkəzi kimi həm teatr işinin, həm də musiqi sənətinin inkişafına böyük təsir göstərmişdir. Məhz musiqili əsərlərin də bu teatrda tamaşaya qoyulması bu qədim diyarda musiqi sənətinə olan estetik tələbatı daha da inkişaf etdirmiş və bununla da səhnəyə olan marağı və istəyi daha da artırmışdır. Bəstəkarın Naxçıvan teatrı səhnəsində tam aşaya qoyulan səhnə əsərlərindən H. Cavidin "Ana", "Azər", Nazim Hikmətin" Bayramın birinci günü, C. Cabbarlının "Aydın", N.Süleymanlının "Dəyirman", K.Ağayevanın "Mənim tanrım gözəllikdir,sevgidir" əsərlərinə Ramiz Mirişli gözəl və yaddaqalan musiqilər bəstələmişdir.

Bəstəkarın teatr tamaşalarına bəstələdiyi musiqilərdə zəngi və rəngarəng melodiyalarla obrazların daxili aləmini açır və iştirakçıların müxtəlif əhval-ruhiyyələrini yeri-yerində canlandıra bilir. Bu baxımdan da tamaşaların obrazlarının musiqi xarakteristikası gah lirik mahnı romans, gah şux oynaq mahnı rəqs, gah da məzəli mahnı səciyyəsində verilmişdir.

Onu da qeyd edək ki, R.Mirişlinin teatr üçün yazdığı əsərlər içərisində Naxçıvanda H.Cavid adına poeziya teatrının səhnələşdirdiyi H. Cavidin "Azər" dramı xüsusi yer tutur. Əsər 1983-cü ildə rejissor Vaqif Əsədov tərəfindən səhnələşdirilərək tamaşaya qoyulmuşdur. Təcürübəli rejissorun maraqlı işi

bu əsərin ideyasının bədii təcəssümünə, obrazların təbii ifadəsinə şərait yaratmaqla bərabər düzgün aktyor ansamblı seçməsini təmin etmişdir. Əsərdə bəstəkar Ramiz Mirişli isə H. Cavidin "Azər" dramının həlledici epizodlarını əhatəli və dərindən göstərən musiqi dili ilə zənginləşdirmişdir.

"Azər" dramında üç obrazın həyat tarixçəsi -Şəmsanın, Səlmanın və Azərin taleləri əks olunur. Obrazların hər birinin fərqli iç dünyası vardır. Bəstəkarın bu qəhrəmanları səciyyələndirən musiqi təsirli və eşosional cəhətdən güclüdür. Bəstəkar Şəmsanın mahnısında onun qəlbindəki yaraların izlərinin yaratmağa nail olmuşdur. Burada bəstəkar "Şüştər" intonasoyaları əsasında yazdığı mahnı xaraktercə lirik, kədərli musiqi altında səslənir. Dram əsərində verilən ikinci obraz olan Səlmaın taleyini hardasa "Azərin" taleyi ilə üst-üstə düşür. Tamaşa zamanı onun səslənən bir neçə mahnısı talelərindəki bir çox pisxoloji anları əks etdirir. Bununla da buradakı musiqi əsərin əsas ideyasının açılmasına zəmin yaradır.

H.Cavidin ölməz əsərində yeni kəskin mədəni inqilab uğrunda Azərbaycan qadınının həyat yollarına atılması, yeni dünyagörüşün formalaşması, məişətdəki köhnəliyə qarşı mübarizəsini bəstəkar musiqinin emosional dili ilə verməyə müvəffəq olmuşdur.

Demək olar ki bəstəkar Ramiz Mirişli xalq musiqisinin dərinliklərinə mükəmməl surətdə yiyələnmiş və buna görə də müraciət etdiyi bütün janrlarda bir-birindən maraqlı mövzulara, ifadəli məzmuna üstünlük vermişdir. Bu baxımdan da onun əsərlərindəki özünəməxsusluğu, şirinliyi dərhal hiss olunur.

Bəstəkarın yaradıcılığını əhatə edən əsərlərdə ulu Naxçıvan torpağının ətri vardır. Bu da ondan irəli gəlir ki, Ramiz Mirişli bütünlükdə öz elinə yurduna bağlı olan sənətkar olmuşdur. Onun mahnıları və teatr musiqiləri təkcə Naxçıvan teatrında deyil, bütün Azərbaycan musiqi ocaqlarında və teatrlarında əbədi olaraq yaşayacaq [5.s 303].

Bəstəkar R. Mirişlinin kamera orkestri üçün yazdığı simfoniya, tar ilə simfonik orkestr üçün konserti Moskvanın "Melodiya" firması tərəfindən böyük tirajla buraxılmışdır. R. Mirişli yaradıcılığı boyu təkcə respublikamızda deyil, onun hüdudlarından kənarlarda da görkəmli bəstəkarlarla yaradıcılıq əlaqələri saxlayırdı. O, öz yaradıcılığında milli ladlara söykənərək üslub baxımından Azərbaycan xalq musiqisinin pirinsiplərinə və müasir bəstəkar təfəkkürünə əsaslanan özünəməxsus fərqləndirici xüsusiyyət yaratmağa nail olmuşdur.

Azərbaycanın xalq artisti Ramiz Mirişlinin teatr yaradıcılığı tədqiqatçılar üçün əsl tədqiqat mənbəyidir. Bəstəkarın bu sahədəki xidmətlərinə nəzər saldıqda onun bütün varlığıyla xalq musiqisinin köklərinə yiyələnməsinin və öz yaradıcılığı boyu bu zəngin musiqi xəzinəsindən yararlanmasının şahidi olursan. Bu səbəbdən də R. Mirişli öz xalqı tərəfindən sevilən, ürəklərdə yaşayan bir bəstəkao olaraq qalacaqdır.

Azərbaycan Respublikasının xalq artisti fəxri adını daşıyan professr Ramiz Mirişlinin müstəqil Azərbaycanın "Şərəf" və "Şöhrət" ordenlərinə layiq görülməsi də onun xidmətlərinə dövlət tərəfindən verilən yüksək qiymətdir.

Bəstəkar ömrünün son baharında oğlu N.Mirişli ilə birlikdə məhşur "Qəzəlxan" filminə musiqi yazmışdır.

Həm bəstəkar, həm pedaqoq, həm də ictimai xadim kimi fəaliyyət göstərmiş Ramiz Mirişli professional musiqi mədəniyyətimizə layiqli töhfələr miras qoymuşdur. O, ömrünün 81-ci baharının ilk günlərində dünyasını dəyişdi. Ancaq cismani olaraq, çünki o, hər zaman istər efirdə,istərsə də konsert salonlarında səslənən və ifa edilən mahnıları ilə daima bizim aramızda olacaq. Təkcə Naxçıvan teatrında deyil, onun əsərləri həm ölkəmizdə həm də ondan çox-çox kənarlarda öz tamaşaçılarının zövqünü oxşayacaq [6.s 7].

## ƏDƏBİYYAT

1.B.Rzayeva. Nəğmə Ürəkli Bəstəkar Ramiz Mirişli AMEA-nın Naxçıvan bölməsi Axtarışlar, Naxçıvan: 2015, №4 s. 150.
2. C. Vəzirov. Jalə Əliyeva. Sözlü nəğməli Naxçıvan Bakı: 2003, Sabah nəşriyyatı, s.28
3. G. İsmayılova. Bəstəkar Ramiz Mirişli. Monoqrafiya Bakı:2000, s10

4. G. İsmayılova Azərbaycan Bəstəkarlarının mahnı melodiyalarında lad –məqamlardan istifadə məsələləri. Dərs vəsaiti. Bakı: 2011, s.101.
5. Naxçıvan Teatrının Salnaməsi. Bakı: 2008.s.303.
6.J.Qulamova.C.Məmmədquluzadə Adına Naxçıvan Musiqili Dram Teatrı Tamaşalarında Musiqinin Rolu və Əhəmiyyəti. Bakı: 2011,Mars Print,s.

***Naxçıvan Dövlət Universiteti**
***E-mail: rzayeva.benovse@gmail.com***

**Banovsha Rzayeva**

## THEATRICAL MUSIC IN THE COMPOSER RAMIZ MIRISHLI'S CREATIVITY

The object of the article is the theatrical music of Ramiz Mirishli, one of the most worthy representatives of the Azerbaijan composition school. The article also contains brief information about the composer's life and organization of the song genre, which is the main line of the composer's creativity. It is mentioned in the article that the composer used theatrical music with great mastery in addition to his cheerful, playful, heart-warming songs, which are the main genre of his work.

In this article, the author mentioned the names of Ramiz Mirishli's musical works in the field of cinema and theatre and gave information about the first performances of those works. The article also contains information about the stage works of the musical comedy genre, which Ramiz Mirishli initially addressed in the field of stage works. In addition to the composer's theatrical music, the author also mentioned the other genres he addressed. The article talks about the positive effect of the music written by the composer on the more emotional performance and natural sounding of the characters played in the theatre.

In the article, the fine points of Ramiz Mirishli's work, such as the topic of Nakhchivan and his connection with Nakhchivan, were also touched upon. It is shown that the composer's work includes stage works written for young children, and the author once again wanted to convey to the readers that his music is heard not only in Azerbaijan, but also in Iran, Turkey and far beyond our country, and it is familiar to the entire musical community.

**Keywords:** *Ramiz Mirishli, composer, Nakhchivan, theatre, genre, musical comedy, song, work, playwright*

**Бановшэ Рзаева**

## ТЕАТРАЛЬНАЯ МУЗЫКА В ТВОРЧЕСТВЕ КОМПОЗИТОРА РАМИЗА МИРИШЛИ

Объектом статьи является театральная музыка Рамиза Миришли, одного из самых достойных представителей азербайджанской композиторской школы. В статье также даны краткие сведения о жизни композитора и организации песенного жанра, который является основной линией творчества композитора. В статье упоминается, что композитор с большим мастерством использовал театральную музыку в дополнение к своим веселым, игривым, согревающим душу песням, которые являются основным жанром его творчества.

В данной статье автор упомянул названия музыкальных произведений Рамиза Миришли в области кино и театра и дал информацию о первых постановках этих произведений. В статье также даны сведения о сценических произведениях жанра музыкальной комедии, к которому Рамиз Миришли первоначально обращался в области сценических произведений. Помимо театральной музыки композитора, автор также упомянул и другие жанры, к которым он

обращался. В статье говорится о положительном влиянии музыки, написанной композитором, на более эмоциональное исполнение и естественное звучание персонажей, играемых в театре.

В статье также были затронуты такие тонкости творчества Рамиза Миришли, как тема Нахчывана и его связь с Нахчываном. Показано, что в творчестве композитора есть сценические произведения, написанные для маленьких детей, и автор еще раз хотел донести до читателей, что его музыка звучит не только в Азербайджане, но и в Иране, Турции и далеко за пределами нашей страны, и она знакома всему музыкальному сообществу.

**Ключевые слова:** *Рамиз Миришли, композитор, Нахчыван, театр, жанр, музыкальная комедия, песня, произведение, драматург*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.05.2024**
**Son daxilolma tarixi:21.06.2024**